# XƏSTƏXANADA YAZILAN ŞEİRLƏR



KƏMALƏDDİN QƏDİM

## ÜRƏK-QİYAMÇI

Dözməyib uzun sürən ağrılara.
acılara
Bədənimin bütün əzalarını
Qaldırıb ayağa ürək-qiyamçı.
Sistem şlanqlarından axan dərmanlarla
Susdurulur damcı-damcı...

## ŞƏKLİNİ ÇƏKİB PUL İSTƏYİRLƏR...

Neçə gündü nazını çəkməkdəyəm
Ruhumun da başına
bəla canımın.
İçinə nəsə qatıb durultmaq istəyirlər
ilboyu qara qanımın.
Uçulub, dağılan çağıdı
bir vaxtlar qurub-tikən ürəyimin.
Şəklini çəkib pul istəyirlər
dünyanın dərdini çəkən ürəyimin...

## XƏSTƏXANA ODALARI

Xəstəxana odaları
xəstələrlə dopdolu,
Bir parasından
həyat eşqi boy verib, qalxar,
Ölüm boylanar
bir parasından, ölüm.
Burda Allaha
daha çox yaxın bəndələr,
Burda daha çox yaxın
gözlə-qaş arasından ölüm...

## ÖLÜM MƏLƏYİ ƏN ÇOX XƏSTƏXANALARDA DOLAŞIR

Birdən
gecənin bu çağında
Yada salıb ölüm mələyini
ölüm haqqında düşünərsiniz çaşıb.
Qorxmayın,
Rahat yatın mənzillərinizdə
Çünki ölüm mələyi bu saatlar
Ən çox xəstəxanalarda dolaşır...

## XƏSTƏNİN GÖZLƏRİ

Bir az solğun,
bir az qəmli
Yaz buludu kimi
dopdolu, nəmli.
Sakitliyi -
sükutun səssizliyindən ötə,
Yorğunluğu daha betər.
Arzuları, istəkləri
gizlin sevgi məktubları kimi
örtülü, bükülü.
Gah göylərə,
Gah da ki qapıya dikili
Xəstənin gözləri...

## BİR ÜMİDDƏN ASMIŞAM ÖZÜMÜ

Nə varsa asılıdı bu odada,
Hərə bir şeydən asılı;
Dağ boyda bir adam
bir ürəkdən.
İçərinin dərman qoxulu
ağır havası
çöldəki küləkdən...
Başucumdakı asılqandan
içi maye dolu şüşə qab,
sistem şlanqları sallana qalıb,
Divardakı asılqandan paltarlarım.
Bu gün də belə keçdi,
Görən nolacaq yarın?..
Beləcə mən də
bir ümiddən asmışam özümü...

## XƏSTƏ

Bu xəstəxananın bu mərtəbəsində
Ən sakit, ən səssiz,
ən gözəl xəstə mənəm.
Gələn-gedən dost-tanış da
rəngimə, rufuma baxıb
qıymırlar ki söylləsinlər
xəstə mənə.
Təkadamlıq odamda təkəm,
tənha, yalquzaq.
Odam aramsız öskürəklərdən,
iniltilərdən uzaq...
Çox da ən çox ağrı çəkən,
ən çox tikan üstdə mənəm...
Bu xəstəxananın bu mərtəbəsində
Ən sakit, ən səssiz,
ən gözəl xəstə mənəm.
Gedir, qayıtmaq istəmir bəzən,
Çəkirəm, nəfəsim çıxmır.
Çıxmır, yenə səsim çıxmır...
Gözəl olmamışam
bu qədər heç vaxt,
Üzümə-gözümə baxan karıxır.
Çəkirlər,
şəklim də çox gözəl çıxır.
Ağrılarımın, acılarımın
kim bilir neçənci ili çıxacaq...
Bu xəstəxananın bu mərtəbəsində
Ən sakit, ən səssiz,
ən gözəl xəstə mənəm,
Ölürsəm,
məndən çox gözəl ölü çıxacaq...

## DAHA BİR XƏSTƏXANA GECƏSİ

Daha bir xəstəxana gecəsi...
Yenə hüzn dolu
səssizlik aşıb-daşır.
Koridorlarda təkəmseyrək
xəstələr gəzib-dolaşır;
məsum-məsum baxışda,
yazıq-yazıq sifətdə.
Bir də ki tibb bacısı
ağ xələtdə.
Neçə gündü
ürəyim od tutub yanır,
Bağrım başı
şişə çəkilib burda.
Özüm getmək istəmişdim
bir ömür boyu,
Yuxularım
ərşə çəkilib burda...

## BURDA HƏR ŞEY VAXTINANDI

Burda hər şey vaxtınandı...
Keçib getmək bilməsə də
vaxt andır.
Vurulacaq iynənin,
qoşulacaq sistemin vaxtı var.
Onsuz da bol-bol
vaxtı var xəstənin,
vaxtı var...
Biri gəlib
yeməyin vaxtını yadına salır,
Birisi də
içəcəyin dərmanların.
Dünən, bu gün nə vardısa
təkrar olacaq yarın...
Bir özgə adı var burda vaxtın,
bir özgə dadı.
Burda hər şey yalnız və yalnız
Getməyin vaxtı olduğunu
xatırladır...

## KİM VAR, KİM YOX ÜRƏYİMDƏ...

*Sultan həkimə*

Bir tərəfi, bir üzü var,
Künc yox, tin yox ürəyimdə.
Baxma belə ağrısı bol,
Azca kin yox ürəyimdə.

Eh, nədi ki, canı qandı,
Canı yandı, qanı yandı.
Tez qırılan, tez sınandı,
Kök yox, him yox ürəyimdə.

Yaxşı-yaxşı bax, pərdə var,
Haqdan gələn haqq pərdə var.
Toxunmağa şah pərdə var,
Heyif sim yox ürəyimdə.

Dünyadı, get-gəlli, həkim,
Ha yapış dördəlli, həkim.
Nə var, nə yox, bəlli, həkim,
Kim var, kim yox ürəyimdə?